**ARZUMAN KOSAYEV**
***BDU-nun sosiologiya kafedrasının dissertantı***

# ANTİQLOBALLAŞMA VƏ BEYNƏLXALQ TERRORİZM TƏHLÜKƏSİ

Qloballaşma prosesinin dinamikası, onun siyasi və iqtisadi aspektləri və sosial-mədəni təsiri bütün dünya ictimaiyyətini narahat edir (1, s.131). Xüsusilə qloballaşmanın sosial-mədəni ənənələri dəyişdirmək cəhdini zəngin tarixi ənənəyə malik olan bir çox şərq ölkələri qəbul etmirlər. Qərb alimlərinin fikrinə görə qloballaşmada iqtisadi inteqrasiyanın yaradılması ayrı-ayrı ölkələrin köhnə adət-ənənələrinə yenilik gətirir, onu dəyişdirir. Qloballaşmanın digər narahatlıq törədən cəhəti ondan ibarətdir ki, bir tərəfdən inkişaf etmiş ölkələrə zənginlik gətirir, digər tərəfdən isə inkişaf etməkdə olan dövlətlər daha da yoxsullaşır. Nəticədə inkişaf etməkdə olan ölkələrdə terrorçuluq hərəkatı güclənir. Bəzi politoloqlara görə qloballaşma nəticəsində yoxsulluq müəyyən regionlarda cəmlənir. Həmin regionlarda münaqişələri və təhlükəli vəziyyət yaranır.

Qloballaşma prosesində təhlükə bütün dövlətlərə aiddir. Lokal təhlükə qlobal təhlükəyə çevrilə bilər. Kiçik bir dövlətin nüvə silahına malik olması dünya üçün böyük təhlükədir (2, s.5)

Qloballaşma mahiyyətinə və məzmununa görə iki istiqamətə bölünür: *monosentrik* və *polisentrik*.

Monosentrik ABŞ-ın rəhbərliyi ilə aparılan hegemon dünya siyasətidir. Bu siyasət dünyanı iki standarta bölür: *birincisi,* yüksək sivilizasiyaya və tektonologiyaya malik olan dövlətlər; *ikincisi*, geridə qalan yoxsul ölkələr.

Polisetrik qloballaşma isə dinc qarşılıqlı əməkdaşlıq şəraitində yaxınlaşmanı nəzərdə tutur: qloballaşmanın bu istiqaməti dünya dövlətlərinin təbii yaxınlaşmasını və dünyanın bütövlüyünü təmin edir.

Tarixi inkişafın müxtəlif mərhələlərində qloballaşma prosesi baş vermişdir. İşğalçı müharibələr nəticəsində imperiyaların yaranması, qərbdə xristianlıq, şərqdə islam dininin genişlənməsi qloballaşma prosesində ziddiyyətlərin yaranmasına təsir etmişdir, lakin müasir qloballaşma əvvəlkindən öz xarakterinə və xüsusiyyətinə görə fərqlənir. Müasir qloballaşma informasiya texnologiyasının inkişafı ilə xarakterizə olunur.

F.Bobkov və başqalarının yazdıqlarına görə kapitalizm qloballaşma prosesində üç sosial təbəqəni özündə birləşdirir: maliyyə-bank oliqarxiyası, orta təbəqə, elmi-texniki inqilab yaradanlar (54)

Müəlliflər müasir kapitalizmi qlobal kapitalizm adlandırırlar. Qlobal kapitalizm Qlobal kapitalizm dünya ailəsinin tələbatlarını ödəyə bilmədiyinə görə qloballaşma prosesində təzadlı proseslər yaranır. Beynəlxalq Valyuta Fondunun 2000-ci il hesabatına görə 1900-2000-ci il arasında hər ildə ümumi daxili məhsul 3 faiz, qiymətlər isə 19 faiz artmışdır. XX əsrdə isə dünya əhalisi dörd dəfə artmışdır (3, s.21)

Qloballaşma prosesində narkotikanın genişlənməsi sosial varlığın strukturunu məhv edən təhlükəyə çevrilir. Buna görə də antiqlobalistlər dünyanın inkişafını təmin edən yeni alternativ yollar axtarırlar. Antiqlobalistlər müxtəlif təşkilatları, ideoloji qupları, işsizləri təbiəti mühafizə edənləri, güclü dövlətlər tərəfindən istismara məruz qalan xalqları öz ətrafında birləşdirirdi.

Qloballaşma dövründə cinayətkarlıq hadisələri də qlobal xarakter daşıyır. Cinayətkarlığa qarşı mübarizə məqsədi ilə İnterpol təşkilatı yaradılmışdır, lakin bəzi hallarda mafioz qrupların cinayətkarlığı o qədər geniş miqyas alır ki, İnterpol onun onun qarşısını ala bilmir. Ən geniş yayılmış cinayətkarlıq narkotika alveridir.

Hesablamalara görə, narkotik mafiya qrupları ildə 400-600 milyard dollar gəlir əldə edirlər (4, 305). Narkotik maddələrin əsasən becərilməsi və ixrac edilməsi Əfqanıstanla bağlıdır. BMT-nin hesablamasına görə ildə bu ölkədə 2500 ton narkotika becərilir (4, 305). Hazırlanan məhsul gizli vasitələrlə Avropa, Rusiya və digər ölkələrə göndərilir.

Qloballaşma prosesinin cinayətkarlıq hadisələrindən biri də qeyri-qanuni silah alveridir. Silah əsasən etnik və dini zəmində başlayan münaqişə tərəflərinə satılır. Silah satışı terrorçu qruplarını gücləndirir. Qeyri leqal miqrasiya da qloballaşma prosesinin törətdiyi fəsadlardan biridir. Miqrasiya edənlər kasıb ölkələri əhatə edir. əsas qeyri leqal miqrasiya Orta Asiya, Rusiya, Ukrayna vasitəsi ilə Qərbi Avropa dövlətlərinə edilən miqrasiyadır.

1991-ci ildən sonra qeyri leqal miqrasiya edənlərin sayı 150 dəfə çoxalmışdır (4, s. 384). Antiqlobalistlər qloballaşma şüarı adı altında həyata keçirilən zorakılıq siyasətinə qarşı çıxırlar. Qloballaşma prosesində gizlin, vergidən yayınan kölgə iqtisadiyyatı nəticəsində cəmiyyətə qarşı olan təhdidlər güclənir. ABŞ-da kölgə iqtisadiyyatından 700 milyard dollar Böyük Britaniya 190 milyard dollar, İtaliya 310 milyard dollar il ərzində gəlir əldə edir (3, s.31).

Dünya Bankının prezidenti D. Bulfenson göstərir ki, 11 sentyabr 2001- cinayətkarlıq il faciəsi yeni müharibə kasıbların varlılara qarşı müharibəsidir. Qloballaşma prosesində ABŞ-ın Transmilli Korporasiyaları isə daha çox gəlir əldə ediblər.

1999-cu ilin məlumatlarına görə «Ceneral Motros» – 177, «Bol-Mart» – 167, «Eksoha Mobil» – 164, «Ford» – 163 milyard dollar əldə ediblər (3, s.90).

Qloballaşma şəraitində transmilli korporasiyalar dünya iqtisadiyyatının idarə olunmasına, milli iqtisadiyyatın inkişafını istədikləri istiqamətə yönəlməsinə təsir göstərirlər. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı maliyyə baxımından qloballaşma iqtisadiyyatını tənzim edir. Transmilli Korporasiyalar dünyanın bir çox ölkələrində xammal resurslarının istehsalına, satışına, yeni texnologiyanın tətbiqinə nəzarət edir.

İqtisadi böhran özünü qloballaşma prosesində daha qabarıq göstərir. Antiqlobalistlərin ilk hərəkatı 1998-ci ilin yanvar ayında Meksikada baş verdi. Antiqlobalistə azad iqtisadi zonanın yaradılmasına qarşı çıxırdılar. 2001-ci ilin iyul ayında İtaliyanın Genuya şəhərində Səkkizlərin Konfransına qarşı 100 minlərlə antiqlobalist çıxış etdi. 20 min ixtisaslandırılmış polis qüvvəsi nümayişçilərin sammitin keçirildiyi binaya hərəkətinini qarşısını aldı (4, s.317).

Antiqlobalistlərə görə yeni imperialistlər yalnız fəhlə sinfini deyil, həm də inkişaf etməkdə olan ölkələrin xalqlarını istismar edir, təbiəti məhv edirlər (4, s.319).

Antiqlobalistlərə görə kapitalist elitası beynəlxalq maliyyə qurumları, Trans-milli Korporasiyalar vasitəsi ilə dövlətlər üzərində nəzarəti ələ keçiriblər. Onlar fəaliyyətini beynəlxalq konfranslar vasitəsi ilə əlaqələndirirlər. S.O. Udovkinin yazdığına görə qloballaşma prosesində həyata keçirilən amerikanlaşma xalqlarım milli mənşəyini, ənənəvi mədəniyyətini, yerli iqtisadiyyatını, universitetlərini məhv edir (4, s.319).

Qloballaşma prosesində iqtisadi münasibətlər daha da qütbləşir. İsveçrədə illik gəlirdən hər adambaşına 38.380 dollar, Efiopiya, Burundi, Siyera-Leoneda isə 130 dollar düşür (3, s.25).

Cənubi Asiya əhalisinin 43 faizi yoxsul vəziyyətdə yaşayır. Hazırda dünya üzrə 800 milyon insan aclıqdan əziyyət çəkir.

**Cədvəl 1.1**

**Əhalinin yoxsul vəziyyətdə olan regionları (*mln. nəfərlə*)**

| Region | 1975 | 1985 | 1995 |
|---|---|---|---|
| Cənubi Asiya | 90,6 | 100,1 | 86,0 |
| Afrikada Cənubi Səhra | 18,5 | 24,1 | 51,4 |
| Şərqi Asiya | 45,1 | 42,8 | 36,2 |
| Yaxın Şərq və Şimali Afrika | 5,2 | 5,0 | 6,3 |
| Latın Amerikası və Karib Hövzəsi | 8,2 | 5,7 | 5,2 |

Beynəlxalq əmək təşkilatının məlumatına görə inkişaf etməkdə olan ölkələrdə 100 milyondan çox uşaq işlədilir. Onlardan 50-60 milyon nəfəri insan orqanizmi üçün zərərli işlərdə işləyirlər.

Əhalinin yoxsul vəziyyətdə yaşaması cinayətkarlıq hallarının artmasına gətirib çıxardır. Milli və Trans-milli zəmində törəyən cinayətkarlıq halları qloballaşma prosesinə təhlükə törədir. Qloballaşma müsbət cəhəti ilə yanaşı mənfi tendensiyalar törədir. Mənfi tendensiyalardan biri beynəlxalq terrorizm hadisəsidir. Latın dilində «*terror*» – qorxu, dəhşət, vahimə törətmək mənasında işlədilir. Ümumiyyətlə terror siyasi zorakılığın bir formasıdır. Qloballaşma prosesindən narazı olan qüvvələr terror hadisələri törətməklə onun qarşısını almağa çalışırlar.

Keçən əsrdə terror qrupları ayrı-ayrılıqda fəaliyyət göstərirdilər. Qloballaşmanın nəticəsində dünyanın müxtəlif yerlərində fəaliyyət göstərən terrorçu qruplar vahid mərkəzdən idarə olunur, fəaliyyətlərini əlaqələndirirdilər. «Terrorçuluğun beynəlmiləlləşməsi» anlayışı iki tendensiyanı əhatə edir. Əvvəla, terrorçuluğun kriminal fəaliyyətinin milli sərhədləri aşmasını, ikincisi, terrorçu təşkilatlar arasında əlaqələrin qurulması və möhkəmləndirilməsi nəticəsində narkobiznes, insan, silah alveri və digər cinayətkar fəaliyyətlə əlaqəli olan hansısa ümumdünya terrorizm birliyinin formalaşması.

N.Mehdiyevin yazdığına görə: «Terror bəhanədir, əsas məsələ atlantizm və s. kontinentalizm arasında ziddiyyətdir» (5). Atlantizm ideyasına ABŞ və onun müttəfiqləri başçılıq edir. Digər tərəfdə isə Avrasiyanın yeni güc mərkəzləri dayanır. Onlar özünəməxsusluğu qoruyub saxlamağa çalışırlar. Terrora qarşı mübarizə aparmaq məqsədi ilə İraq, Əfqanıstan kimi ölkələrə qarşı antiteror əməliyyatlar aparılır. N.Mehdiyevin fikrinə görə: «XXİ əsrin geosiyasətinin əsas mahiyyətini terrorizmə qarşı mübarizə təşkil etməyəcək, bu, üzdə olan amildir. Əsas geosiyasi mübarizə ABŞ başda olmaqla atlantizm bloku ilə Avrasiyanın güc mərkəzləri arasında olacaqdır. Bu mübarizədə əsas məqsəd dünyaya nəzarəti ələ keçirməkdən ibarətdir» (5).

XXİ əsrdə qloballaşma beynəlxalq əhəmiyyət kəsb etdiyinə görə terrorizm də beynəlxalq cəhətdən genişlənir. Beynəlxalq terrorizm qloballaşma mahiyyətindən, onun çatışmayan cəhətlərindən, öz həllini tapa bilməyən problemlərdən törəyir. əgər qloballaşma mərkəzi əhatə edirsə ucqarlar ona terrorla cavab verirlər. Güclü dövlətlərin zəif dövlətlərə qarşı zorakılıq tədbirləri də terrorizmin meydana gəlməsinə təsir edən səbəblərdən biridir. Separatçı qüvvələr də terror hadisəsi törətməklə öz məqsədlərinə çatmaq istəyirlər.

Qloballaşmanın əsas məqsədlərindən biri H.Kisencerə görə dünyanın yeni nizamının yaradılmasıdır. Bu prosesdə milli, beynəlxalq, qeyri – dövlət təşkilatlarının ilk növbədə transmilli korporasiyanın təsirin artırır. Zəifləmədən qorxan bəzi milli dövlətlər antiqlobal hərəkatda iştirak edirlər. Qloballaşma prosesində törətdiyi fəsadlar qloballaşma anti-qlobal hərəkatın yaranmasının başlıca səbəbidir.

Qloballaşmanın mənfi tərəfi aşağıdakılardır:

*Birincisi*, qloballaşma prosesində lider dövlətlər öz mənafeyini üstün tutur, digər ölkələrin mənafeyini nəzərə almırlar.

*İkincisi*, üz ölkələrinin mütəxəssislərini və işçi qüvvəsini digər dövlətlərin işçi qüvvəsindən fərqləndirərək yüksək əmək haqqı, digərlərinə aşağı əmək haqqı verirlər.

*Üçüncüsü*, viza rejiminə edilən güzəştlər ancaq lider dövlətlərə, transmilli təşkilatlara aid edirlər. Digər dövlətlər viza güzəştlərindən istifadə edə bilmirlər.

*Dördüncüsü*, azad bazar iqtisadiyyatının əsas prinsipi olan rəqabətdə kiçik milli dövlətlərə qarşı ədalətsizliyə yol verirlər.

*Beşincisi*, güclü dövlətlər milli dövlətlərə qoyduğu vəsaitdən bir neçə dəfə çox gəlir əldə edirlər.

*Altıncısı* transmilli korporasiyaların bir çoxu narkotik maddələr, silah alveri ilə məşğuldurlar.

*Yeddincisi*, ABŞ-ın zorakı qloballaşma siyasəti islam ölkələrində kəskin müqavimətlə qarşılanması dünyanın bəzi bölgələrində qeyri-sabit vəziyyət yaranır.

İqtisadiyyat üzrə Nobel mükafatı laureatı Cozef E. Stiqlitz yazmışdır: «Qloballaşma – azad ticarət və milli iqtisadiyyat daha sıx şəkildə inteqrasiya etməsinin qarşısında duran maneələrin aradan qaldırılması – hər bir fərdin rifahına xidmətindən bir qüvvəyə çevrilə bilər və o, hamının, xüsusilə də yoxsul təbəqənin varlanması üçün lazımi potensiala malikdir» (6, s.18).

Müəllifin fikrinə görə qloballaşma prosesi inkişafda olan ölkələrdə düzgün həyata keçirilmədiyinə görə həmin ölkələrin əhalisi daha da kasıblaşır. Həmin ölkələrdə azad bazar iqtisadiyyat və rəqabət yaradılmadan özəlləşdirməyə keçid inhisarçılığın yaranmasına, inflyasiyanın baş verməsinə gətirib çıxardır.

İnkişaf etmiş kapitalist ölkələrində isə düzgün olmayan modellərin tətbiqi nəticəsində iqtisadi və maliyyə böhranı baş verir, qeyri sabit vəziyyət yaranır. Xüsusi ilə iqtisadiyyata səriştəsiz dövlət müdaxiləsi mənfi nəticələrə gətirib çıxardır. Hökumətin effektli müdaxiləsi nəticəsində əhalinin yaşayış səviyyəsi yüksəlir, işsizlik azalır və ekologiyanın qorunmasına şərait yaranır.

İnkişaf etməkdə olan ölkələrin daxili bazarının inkişaf etmiş dövlətlərin sənaye məhsullarının ixracına çevrilməsi xammalın ucuz qiymətə alınması həmin ölkələrin iqtisadi cəhətdən məhv olmasına gətirib çıxarır.

Qloballaşma prosesində atılan səhv addımlar inkişaf etməkdə olan ölkələrin əhalisinin vəziyyətini daha da pisləşdirmişdir. İnkişaf etmiş kapitalist ölkələrində isə 1997-1998-ci illərdə və 2008-ci ildə güclü iqtisadi böhranın əsasını qoymuşdur. Böhran maliyyə-kredit, iqtisadiyyat sahələrini əhatə edərək dünya əhalisi üçün təhlükəli vəziyyət yaradır. 20 dövlətin Londonda keçirilən sammitində (aprel 2009) böhrandan çıxmaq üçün liberal kapitalist sahələrini, xüsusi ilə maliyyə-kredit, bank vergisi və digər sahələrin dövlət tərəfindən nəzarətə alınması qərara alınmışdır. 20 dövlət başçılarının London sammiti kəskin antiqlobal hərəkatla qarşılanmışdır.

Cozef E. Stiqlitz yazmışdır: «Afrika müstəmləkələrinin azadlıq qazanması ilə boylanan böyük ümidlər tamamilə özünü doğrultmamışdır. Əvəzində isə gəlirlər azaldığından və həyat səviyyəsi aşağı düşdüyündən, qitə get-gedə yoxsullaşmışdır» (6, s.6).

Qloballaşma nəticəsində inkişaf etməkdə olan ölkələrdə qeyri sabit vəziyyət yaranır, sosial qruplar, siyasi partiyalar arasında mübarizə kəskinləşir. Baş verən iqtisadi və maliyyə böhranları isə iqtisadiyyatı təhlükə altına alır. Qloballaşma nəticəsində Rusiya və digər kommunizmdən bazar iqtisadiyyatına keçən dövlətlərə vəd edilən uğur gətirməmişdir (6, s.6).

Çin Xalq Respublikası Rusiyadan fərqli olaraq xırda istehsal sahələrini özəlləşdirdi, iri sənaye sahələri isə dövlət mülkiyyətində saxlanıldı. Rusiya isə birdən-birə özəl-

ləşdirmə sahəsinə keçdi. Nəticədə Rusiyada yoxsullaşma güclәndi, Çində isə yoxsullaşma səviyyəsi aşağı düşdü. Qloballaşmanın əleyhdarları bu vəziyyətin yaranmasında Qərb dövlətlərini günahlandırırlar. Yoxsulluq və işsizlik isə Latın Amerikası, Afrika və Asiyanın bir çox dövlətlərdə kütləvi münaqişələrin ilk növbədə etnik münaqişələrin baş verməsinin əsas səbəbidir.

İnkişaf etmiş dövlətlərində antiqloballaşma tərəfdarları beynəlxalq maliyyə qurumlarına təzyiq göstərmək gücü yoxdur. Nəticədə inkişaf etməkdə olan bir çox dövlətlərdə müstəqillik təhlükə altına alınır.

Qloballaşmanı əsasən Beynəlxalq Korporasiyalar həyata keçirirlər. Onlar nəinki maliyyə sahələrinə, həm də texnologiya sahələrində nəzarəti ələ keçirirlər. BVF bazarı tənzimləmək əvəzinə ona nəzarəti həyata keçirməyə çalışır. BVF bazarı təmizləmək üçün zəif inkişaf etmiş dövlətlərə maliyyə yardımı ayırmalıdır. BVF ilə Dünya Bankı arasında ziddiyyətlərin yaranması da dünya iqtisadiyyatının və bazarın tənzim edilməsinə mənfi təsir göstərir.

Berlin divarının dağılması nəticəsində keçmiş kommunist blokuna daxil olan ölkələr qloballaşma prosesinə cəlb edildi. BVF və Dünya Bankı həmin dövlətlərdə əməkdaşlığı genişləndirərək onların bazar iqtisadiyyatına keçmələri üçün maliyyə cəhətdən yardım etdi. Lakin BVF ilə Dünya Bankı arasında ziddiyyətlərin yaranması maliyyə yardımını zəiflətdi. Buna görə də BVF kommunizmdən bazar iqtisadiyyatına keçid kimi öhdəsinə götürdüyü yeni məqsədlərə keçiddə uğur qazana bilməmişdir (6, s.16). Nəticədə bir çox ölkələrdə ictimai, siyasi xaos yarandı. Yeni iş yerləri yaradılması köhnə iş yerlərinin ləğvi işsizliyin artmasına səbəb oldu. Konqo, Nigeriya, Syera-Leona zəngin ehtiyatlara malikdir. Valyuta yardımı nəticəsində bu ölkələr iqtisadi cəhətdən inkişaf etdi. Lakin var-dövlətə nəzarət uğrunda daxili qüvvələr arasında mübarizə kəskinləşdi. İmtiyazlı təbəqələr arasında daxili mübarizə ölkəni yoxsul vəziyyətə saldı. Böhranın baş verməsi iqtisadiyyatın tənəzzülündən başlayaraq əhalinin həyat səviyyəsinin aşağı düşməsinə səbəb olur. ABŞ, Avropa və digər ölkələri əhatə edən böhran həm də azad bazar iqtisadiyyatını zəiflədir.

Qloballaşma prosesində şirkətlər, banklar bağlanır, bazar böhranı baş verir, işsizlər kütləsi yaranır. ən böyük təhlükə bundan sonra yaranır. Antiqlobalistlərin hərəkatı kortəbii hərəkat olub, böyük dövlətlərin sammiti keçiriləndə başlayır. Buna görə də antiqlobalizm hərəkatı zəifdir. 2001-ci ilin yazında Şimali, Cənubi Amerikanın azad ticarət zonasının yaradılmasına qarşı Kanadada geniş antiqlobal çıxış başladı. ABŞ və Kanadanın həmkarlar təşkilatı da, NAFTA-nın Qərbi azad ticarət zonasının (FTAA) yaradılmasının əleyhinə çıxış etdilər.

Antiqlobal hərəkatda katolik kilsəsi və digər dini qruplar da iştirak edir və ümumi hərəkata dəstək verirlər.

1999-cu ilin noyabr, dekabr aylarında Citeledə (ABŞ) beynəlxalq ticarət təşkilatının konqresinə qarşı güclü nümayiş keçirildi. Dünyanın 87 ölkəsinin 1200 qeyri hökumət təşkilatı İnternet vasitəsilə bəyannamə imzaladılar. Bəyannamədə qeyd edilir ki, Beynəlxalq birlik Minilliyin Kommersiya proqramına qarşı çıxır.

2001-ci ilin yanvar ayında Braziliyanın Port-Aeqri şəhərinin katolik universitetində Dünya Sosial Forumu keçirildi. Forumda dünyanın 10 mindən çox antiqlobalisti toplanmışdı. 500-ə qədər bölmədə yığıncaq keçirildi. Forumun məqsədi «Anti-Davos» siyasətinin həyata keçirilməsi idi. 2002-ci ildə NYu-Yorkda beynəlxalq iqtisadi foruma qarşı Port-Alegridən daha geniş nümayiş keçirildi. Nümayişdə 130 ölkədən 60 minə qədər nümayəndəliyi iştirak edirdi (7).

Dünyanın bir çox dövlətləri qloballaşmanı suverenliyə, milli mənafeyə zidd hesab edirlər. Onların fikrinə görə qloballaşma adı altında ABŞ dünya imperiyası yaratmaq

iddiasını həyata keçirir.

Semyakin Y.Q. (Rusiya) «Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunun» «Qlobal dünya» adlı klubda çıxışında qeyd edir ki, qloballaşma siyasətində irəli sürülən qərb şüarları utopiyadır, mifdir. Onların reallaşdırılması qeyri mümkündür (8, s.54). Dünya müxtəlif dövlətlər, cəmiyyətlər, dinlər, mədəniyyətlər, dünya baxışlar sistemidir. Onların vahid qəlibdə yerləşdirilməsi qeyri mümkündür. Vahid dünyanın yaranması ideyası isə totalitar mifdir. Total mif vasitəsi ilə cəmiyyətin gələcək inkişafı qeyri mümkündür. Cəmiyyət inkişaf edir, dəyişir və yeniləşir. Lakin bu dəyişkənliyi qloballaşma adı ilə əlaqələndirilməsi düzgün fikir deyildir. Vahid dünya baxışı ziddiyyətlərin inkarı deməkdir. Deməli, qloballaşma irəli sürülən vahid dünya baxışı cəmiyyətin, təfəkkürün, baxışların inkişafını dəyişməsini, yenilənməsini qəbul etmirlər. Onların əsas məqsədi qərb sivilizasiyasının qalib gəlməsini əsaslandırmaqdır.

1989-cu ildə F. Fukyama «Tarixin sonu» adlı kitabında göstərir ki, Sovet İttifaqının dağıdılması nəticəsində ABŞ-SSRİ qarşıdurması başa çatır. Soyuq müharibə dövrünü yeni dövr əvəz edir. Yeni dövr qlovallaşma tərəfdarları arasında kəskin ziddiyyətlərlə müşahidə olunur.

Antiqlobalistlərin fikrinə görə müasir qloballaşma qeyri demokratik hərəkatdır. Çünki bu hərəkatın nəticəsində milyardlar bir qrup dövlətin əlində toplaşır, qalan dövlətlər isə daha da yoxsullaşır. Antiqlobalistlər qloballaşmada yaranan hər hansı inteqrasiyanın milli dövlətlərin mənafeyinə uyğun olmasını tələb edirlər.

Rusiya qloballaşmaya, antiqloballaşmaya öz mövqeyini açıq bildirmişdir. Rusiyanın sosial-siyasi elmində qloballaşmanın neorealizm mövqeyi tənqid edilir. belə bir cəhətə diqqət yetirilir ki, qloballaşma insanların sosial-siyasi vəziyyətinin yaxşılaşdırılmasına yönəlməlidir. Rusiyada «Qlobal dünya» adlı elmi klub yaradılmışdır. Elmi klubda qloballaşma və antiqloballaşmaya aid elmi kitablar, məqalələr çap olunur, elmi konfranslar keçirilir.

Bəzi sosioloqlara görə qloballaşmada güclü, demokratik milli dövlətlər öz səlahiyyətlərini qoruyub saxlaya bilər. Transmilli korporasiyaların qoyduğu qaydaları çox vaxt milli dövlətlərin qəbul etməməsi nəticəsində qeyri-sabit vəziyyət yaranır. Transmilli korporasiyalara qarşı terror hadisələri baş verir. Qloballaşma prosesində yaranan iqtisadı böhranlar bütün dünyanı əhatə etdiyinə görə daha təhlükəlidir. ABŞ-da başlayan son iqtisadi və maliyyə böhranı bütün dünya dövlətlərinə mənfi təsir etdi. İqtisadi və maliyyə böhranı cəmiyyətin bütün sferalarında təhlükəli vəziyyət yaradır. İlk növbədə əhalinin yaşayış səviyyəsi aşağı düşür. Qloballaşmanın yaratdığı böhran nəticəsində geosiyasi münaqişələr daha da dərinləşir. Bu münaqişələrin qarşısını müharibələr yolu ilə almaq qeyri mümkündür.

Qloballaşma prosesi hazırda dünyanın intellektual düşüncə tərzində zorakılıq amilini gücləndirir.Buna görə də dünyanın bir çox ölkələrində ziyalıların demokratik təbəqəsi qloballaşma əleyhinə çıxırlar.

J.Bove Fransada qlobalizmə qarşı «Via komrezina», «Rablik siateren» adlı antiqlobal təşkilat yaratmışdır. Təşkilatın üzvləri ABŞ məhsullarını boykot edir, simvolları sındırırlar. Onun fikrinə görə vətəndaşlıq mövqeyinin itirilməsi cəmiyyətin məhvinə doğru aparır. Bove qloballaşma prosesində hərbi bazaların yaradılmasını, nüvə sınaqlarının keçirilməsini pisləyir. Qeyd edir ki, dövlət bir qrup varlı elitanın deyil, bütün vətəndaşların mənafeyini müdafiəyə etməlidir.

X. Malerə görə: «İslamda mənəvi oyanma dövrüdür (9). Qərbdə mənəvi vakuum yaranır. Ona cavab vermək üçün axırıncı dəfə «American way of life» şüarına inam gətirir». X. Maller qloballaşmanın Amerikan variantını qəbul etməyərək deyir ki. Amerika faciəsini dünya qəbul etməməlidir.

Antiqlobal təşkilatlardan biri də Fransada fəaliyyət göstərən ATTAC təşkilatıdır. 30 min nəfərdən çox üzvü olan təşkilatın dünyanın bir çox ölkələrində filialı yaradılmışdır. Təşkilatın məqsədi ölkəni qlobal maliyyə təzyiqində, transmilli korporasiyaların təzyiqindən, milli sosial proqramı inkişaf etdirməkdən ibarətdir.

Qloballaşma hərəkatına qarşı ən güclü təhdid beynəlxalq terror hərəkatıdır.

Bir çox tədqiqatçılar beynəlxalq terrorizmi qloballaşmanın törəməsi hesab edirlər (10, s.12). Qloballaşma nəticəsində güclü dövlətin iqtisadiyyatı, ideologiyası mədəniyyəti əyalətləri, zəif dövlətləri özlərinə tabe edir. Tabeçiliyin qarşısını almaq üçün suveren dövlətin milli təhlükəsizliyinin yaradılması vacib şərtdir. Suveren dövlətin zəifləməsi daxili ziddiyyətlərin güclənməsinə, anarxiyanın yaranmasına gətirib çıxarır. Bəzi hallarda etnik və dini zəmində lokal müharibələr, münaqişələr baş verir, ziddiyyətlər kəskinləşir.

Fövqal dövlət isə dünyada baş verən qlobal proseslərin qarşısını ala bilmir. Dünya dövləti yaratmaq iddiası dünyanın nizamını pozur. H. Kisencer bu prosesi dünyanın yeni nizamsızlığı adlandırır (10, s.12).

Fövqəl dövlət qloballaşma prosesinə cavab verməyən dövlətlərə qarşı güc tətbiq edilir. Bu proses sosial və siyasi elmə zorakı qloballaşma adı ilə daxil olmuşdur. Əfqanıstanda, İraqda, Yaxın Şərqdə baş verən hadisələr zorakı qloballaşmanın nümunəsi kimi göstərmək olar. Beynəlxalq qloballaşma nəticəsində aşağıdakı mənfi proseslər baş verir.

*Birincisi*, milli suveren dövlətin zəifləməsi beynəlxalq cinayətkarlığı gücləndirir; ikincisi, zorakı terrorizm güclənir; üçüncüsü, antiqlobal hərəkatda yalnız suveren dövlətlər deyil qeyri dövlət və ictimai təşkilatlar iştirak edir.

Qloballaşma prosesinin də aparıcı dövlətlər ilə milli dövlətlər arasında ziddiyyətlər kəskinləşir. Bəzi hallarda qarşıdurmalar region müharibələrinə çevrilir. Qloballaşmanın belə nəticələnməsi regionların siyasi-iqtisadi sabitliyini pozur. Münaqişə tərəflərinin qüvvələri qeyr-bərabər olduğuna görə zəif tərəflər terror müharibəsinə əl atırlar.

Qloballaşmanın əsas məqsədi iqtisadı inteqrasiya yaratmaq əlverişli dünya bazarlarına nəzarət etməkdən ibarətdir. Dünya bazarlarına nəzarət etmək iddiası sabitliyi pozur. 2001-ci il 20 sentyabr Nyu-yorkda yerləşən Beynəlxalq Ticarət Mərkəzində baş verən terror hadisəsi təsadüfi deyildir. Deməli, beynəlxalq terrorizmi qloballaşma siyasətinin özündə baş verən ziddiyyətlərdə axtarmaq lazımdır. Böyük dövlətlərə qarşı terror müharibəsində tamamilə məhv olmamaq üçün beynəlxalq terror şəbəkələri təlim mərkəzləri yaradır, və müasir texnika ilə silahlanırlar. Bu təhlükəni görən qlobal lider ölkələr kollektiv antiterror əməliyyatları həyata keçirirlər.

Z.Bjezinskiyə görə bəzi dövlətlər ABŞ-ın qloballaşma siyasətini zorakılıq siyasəti hesab edirlər, halbuki Amerika elitası yüksək mədəni səviyyəyə malik olan elitadır.

Münaqişələr, terror hadisələri dünyanın bəzi regionlarında siyasətin düzgün qurulmaması nəticəsində baş verir. Cənub Şərqi Asiyada, Afrikada təhlükəli etnik münaqişələr baş verir. Bu ərazidə silah alveri genişlənir, silahlanma güclənir, fanatik dünya görüşü dərin kök salır (11, s.60). ABŞ isə terrora qarşı antiterror əməliyyatı həyata keçirir. Beynəlxalq terror hadisələrinin qarşısını almaq üçün ilk növbədə yoxsulluq, işsizlik, demokratik partlayışın və kortəbii miqrasiyanın qarşısı alınmalıdır. Zor tətbiq etmək, antiterror əməliyyatlar keçirmək nəticəsində yeni terror hadisələri baş verir. Terror hadisələri aramsız uzandıqca dünya üçün təhlükəli prosesə çevrilir. Kollektiv təhlükəsizlik sisteminin yaradılması da terror hadisələrinin qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edir. Terror hadisəsi böyük qüvvələrə qarşı cavab verə bilməyən zəif qüvvələr tərəfindən törədilir. Terrordakı fanatik zəiflikdən irəli gəlir (11, s.63). Zəifliyi terror hadisəsi ilə aradan qaldırmağa çalışırlar. Z. Bjezinskiyə görə terrorun qarşısını

almağın mühüm yolu həmin ölkələrdə demokratik cəmiyyətin qurulmasıdır.

Qloballaşma prosesində ziddiyyətlərin kəskinləşməsi səbəbindən biri də enerji təhlükəsizliyi ilə bağlıdır. ABŞ və Qərbi Avropa dövlətləri yüksək texnika və texnologiya yaradıblar. Buna görə də enerji resurslarına tələbat artır. Enerji ehtiyatlarına malik olmaq təhlükəsizliyin əsas təminatına çevrilir. Enerji resursları ilə zəngin olan ərazilərdə nəzarəti gücləndirmək uğrunda mübarizə kəskinləşir. Təsadüfi deyildir ki, terror hadisəsi enerji ilə zəngin olan ölkələrdə və onlara yaxın olan ərazilərdə baş verir.

Qloballaşmanın güclü dövlətlərin mənafeyinə xidmət etməsi, qeyri-bərabər müqavilələrin bağlanması da terror hadisəsinin baş verməsinə səbəb olur. Ölkələrin mili maraqlarına cavab verə bilməyən dövlətin siyasətindən narazı qüvvələr terror qruplarında birləşirlər. Qloballaşma prosesində baş verən beynəlxalq terror hadisələri dünyada ictimai sabitlik üçün təhlükə törədir. Buna görə də bir çox güclü dövlətlərə silahlı qüvvələr vasitəsilə antiterror əməliyyatlar həyata keçirirlər. Beynəlxalq terror və antiterror əməliyyatlar xüsusi tədqiqat sahəsi olub indiyə qədər birtərəfli qaydada tədqiq edilmişdir. İlk növbədə beynəlxalq terror əməliyyatının baş vermə səbəbləri və onların qarşısının alınması elmi cəhətdən araşdırılmalıdır.

1972-ci ildə BMT-nin Baş Məclisinin sessiyasında beynəlxalq terrorizmin mahiyyəti təhlil edilmişdir (10, s.15). BMT nəzdində terrorizmə qarşı mübarizə aparan Xüsusi Komitə yaradılmışdır.

2001-ci ilin iyun ayında Şanxay forumunda separatizmə və terrorizmə qarşı konvensiya qəbul edildi. Konvensiyada separatizmə və terrorizmə qarşı birgə mübarizə aparılması irəli sürüldü (10, s.18)

Separatizm hadisəsi baş verən yerdə terror hadisəsi də baş verir. Buna görə də qloballaşma prosesində baş verən separatizm təhlükəli hadisə olub qarşısı vaxtında alınmalıdır. Separat terrorçular ölkənin ərazisini parçalamağa, azlıqda qalan milli-etnik qruplara müstəqil dövlət qurulmasını tələb etdilər.

Separatçı qruplar böyük dövlətlərin silahlı, maliyyə və diplomatik yardımından istifadə edirlər. Dünyanın digər regionları ilə müqayisədə Avropada nisbi sabitlik hökm sürsə də separatizm təhlükəsi burada da özünü göstərir. Bretan Koriska Fransadan, backlar, Kotoloniya İspaniyadan, Padiniya-İtaliyadan, Şotlandiya, Uels, Şimali İrlandiya İngiltərədən ayrılmaq istəyir, «sakit» Belçika üç hissəyə bölünməyə hazırlaşır (4, 356). Yuqoslaviya separatizm nəticəsində parçalandı.

Avropa birliyi genişlənsə də ayrı-ayrı ölkələrdə baş verən separatizm, millətçilik hərəkatı onu zəifldir. Etnik separatizm ölkənin ərazi bütövlüyünü təhlükə altına alır. maddi və mənəvi sərvətləri dağıdır, qeyri-sabit vəziyyət yaradır. Etnik separatistlərin siyasi məqsədi müstəqil dövlət qurmaqdır. Dünyada 3 mindən çox xalq, etnik qrup vardır (13). Onlara müstəqillik verilməsi qeyri mümkündür, separatistlər silahlı, təcavüzkar, etnik-ideoloji, dini, ekstremist terrorçu qruplar formasında təzahür edir.

Terrorizm həm də böyük dövlətlərin əlində siyasi vasitə rolunu oynayır. Separatizmi və terrorizmi müdafiə edən, onları maliyyələşdirən, silahlandıran dövlətlər, təşkilatlar beynəlxalq hüquq qaydalarına zidd hərəkət edirlər.

Separatizm ölkənin ərazi bütövlüyünü təhlükə altına alır, mərkəzi hakimiyyətə qarşı silahlı münaqişəyə başlayır, terror törədirlər. Silahlı yol ilə münaqişə törədənlə təcavüzkar separatizm adlanır. Ekstremistlər silahlı mübarizə yolu ilə hakimiyyəti zəifldir, terror törədirlər. Elmi ədəbiyyatda beynəlxalq terrorizm məqsədinə, xarakterinə, iştirakçılarına görə aşağıdakı formalara bölünür (10, s.24):

1.Siyasi terrorizm ideologiyasına görə fərqlənir. Onlar marksist, monarxiya, anarxiya faşist və sosial-inqilabçı qruplara bölünürlər. Siyasi terrorçuların məqsədi cəmiyyəti, iqtisadi, siyasi, sosial cəhətdən dəyişməkdən ibarətdir;

2.Etnik millətçi, separatist terrorçular. Millətçi separatist terrorçular müstəqillik şüarı altında gizlənərək digər etnik qruplara qarşı silahlı zorakılıq tətbiq edirlər;

3.Fundamental dini terrorçu qrupları. Fundamentalistlər dindən ideoloji vasitə kimi istifadə edərək digər dinlərə qarşı istifadə edirlər. Bir çox hallarda dini qarşıdurma silahlı münaqişəyə çevrilir.

4.Cinayətkar terroristlər narkobiznes, silah alverçiləri və s. qruplardan ibarətdir.

5.Ekoloji terrorçu qrupları elmi texniki tərəqqinin nəticələrindən təbiəti çirkləndirənlərə nüvə sınaqlarına qarşı terror yolu ilə mübarizə aparırlar.

M.V.Baskaran (ABŞ) terrorizmin aşağıdakı qrupların nəticələrini göstərir (12, s.38 ):

1. Beynəlxalq səviyyədə olan siyasi terrorizm;

2. terror qruplarını maliyyələşdirən dövlətlər;

3. transnasional terrorizm beynəlxalq təşkilatlar səviyyəsində fəaliyyət göstərən terrorçu qrupları

II. Dini terroristlər:

1.fanatiklər,

2.Müqəddəs müharibə.

III. Beynəlxalq səviyyədə cinayətkar terrorçu qrupları:

1.narkobiznes

2.fərdi terroristlər,

3.psixoloji terrorist qrupları

Qlobal terrorizm beynəlxalq səviyyədə idarə olunan struktur şəbəkələri yaradır, müasir informasiya vasitələri ilə təchiz olunurlar. Beynəlxalq terrorizmin informasiya şəbəkələri gizlin saxlanılır, yerləşdikləri əraziləri tez-tez dəyişdirir, qlobal şəraitə görə uyğunlaşırlar. Beynəlxalq şərait dəyişdikdə terrorçu qruplar da fəaliyyətlərində dəyişikliklər edirlər. Beynəlxalq terroristlər xüsusilə narkobizneslər, silah alverçiləri transmilli korporasiyaların nəzdində gizlin fəaliyyət göstərirlər. Məhz buna görə də terrorizmin bu növünü ləğv etmək müəyyən çətinliklər törədir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq beynəlxalq terrorizmi aradan qaldırmaq üçün dünya dövlətləri təhlükəsizlik sahəsində əməkdaşlığı genişləndirməlidirlər. Beynəlxalq terrorizmin geniş yayılmış növlərindən biri *siyasi terrorizmdir. Müa*sir qloballaşma prosesində siyasi terrorizmin idarəetmə strukturları əsaslı surətdə dəyişdirilmişdir.

Siyasi terrorizmin idarə olunmasında iki prinsip əsas götürülür: iyerarxiya və horizontal. İyerarxiya aşağıdakıların mərkəzi təşkilatlara tabe olmasıdır. Horizontal idarəetmə isə aşağı təşkilatlara şəraitdən asılı olaraq müstəqil fəaliyyət göstərməyə icazə verilir. Qloballaşmanın suveren dövləti zəiflətməsi siyasi terrorizmi gücləndirir. Güclü dövlətlər tərəfindən antiterror əməliyyatlarda aparılan hərbi zorakılığa qarşı əks tərəf terorla cavab verir.

Siyasi qloballaşma yalnız dövlətlər arası inteqrasiyanı deyil, həm də sivilizasiyalar arası əməkdaşlığı da gücləndirməklə dünyanın idarə edilməsini siyasi və mədəni cəhətdən mərkəzləşdirir.

Siyasi qloballaşma dünyanın inkişaf tələbindən irəli gələrək beynəlxalq münasibətlərin strukturunu öz fəaliyyətinə uyğunlaşdırır. Bir qütblü dünya sistemində iki qütblü və çoxqütblü sistemlə dünyanın yenidən nizamlanmasını irəli sürürlər. Dünyanın yenidən nizamlanması əsasında həyata keçirilən siyasi qloballaşma bir mərkəzdən idarə olunur. Yeni siyasi qloballaşmada qeyri demokratik rejimlərin demokratikləşməsinə üstünlük verilir. Qeyri demokratik rejimlərin müqaviməti nəticəsində kəskin siyasi qarşıdurmalar, silahlı toqquşmalar baş verir. Lakin qeyri demokratik rejimlər daxili so-

sial təbəqələr tərəfindən müdafiə edilmədiyinə görə demokratik rejimlə əvəz olunur. Siyasi qloballaşmanın xüsusiyyəti demokratiyanın genişlənməsi ilə müşahidə olunur. Beynəlxalq terrorizm qeyri demokratik rejimlərin qüvvələrindən istifadə edir.

İqtisadi qloballaşma beynəlxalq terrorizmi gücləndirən əsas amillərdən biridir. Dünya dövlətləri arasında ticarətin liberallaşdırılması qeyri qanunu yol ilə daşınan silah, narkotik maddələrin qarşısını alır. Küllü miqdarda gəlirdən əli çıxan mafioz qruplar məqsədlərini həyata keçirmək üçün terrordan istifadə edirlər. İqtisadi qloballaşma dövlətləri resurslardan daha səmərəli istifadə etməyə vadar edir.

İqtisadi qloballaşma beynəlxalq terrorizmin maddi və sosial bazasını zəiflədir. İqtisadi qloballaşmada transmilli korporasiyalar üstünlük təşkil edir. Şimal-Cənub, Qərb-Şərq ticarət magistralları transmilli korporasiyaların nəzarəti altındadır.

Transmilli korporasiyalar əsasən XX əsrin 90-cı illərindən sonra genişləndiyinə görə transmilli terrorizm də həmin dövrdən sonra gücləndi. Transmilli terroristlər iqtisadi inteqrasiyaya qarşı çıxırlar. İqtisadi inteqrasiyalara, xarici ticarət sahələrinə mərkəzləşdirilmiş nəzarət daha güclü həyata keçirilir. Terrorçu qrupların maliyyə gəlirlərinin araşdırılması iqtisadi təhlükəsizliyin qarşısında duran başlıca məqsədlərdən biridir.

1994-cü ildə BMT tərəfindən «Beynəlxalq terrorizmin aradan qaldırılması haqqında bəyannamə» qəbul edilmişdir (13). Bəyannamədə beynəlxalq terrorizmi qarşısını almaq üçün dünya dövlətlərinin birgə fəaliyyətlərinin gücləndirilməsi tələb olunur. Beynəlxalq terrorizmə qarşı effektli mübarizə aparmaq üçün informasiya mübadiləsinin əhəmiyyəti göstərilir.

Qloballaşma prosesində baş verən toqquşmalar geosiyasi maraqların toqquşmasıdır. Müasir dövrdə güclü dövlətlərin əsas geosiyasi maraqları Avrasiya istiqamətinə yönəlmişdir. Avrasiya geosiyasi baxımdan əlverişli coğrafi məkan olmaqla yanaşı, zəngin enerji resurslarına malikdir. Avropa ABŞ hegemonluğundan qurtarmaq üçün Asiya istiqamətində fəaliyyətini gücləndirir. Qloballaşma prosesində Qərb Asiyada nüfuzunu gücləndirmək üçün Çin-Yaponiya arasında ziddiyyətdən istifadə etməyə çalışır (13).

Terrorçuları maliyyə, silah cəhətdən təchiz edən dövlətlərə, təşkilatlara qarşı BMT-nin (2000), AB-nin (2001) konvensiyaları əsasında sanksiyalar tətbiq edilir. Qloballaşma prosesində transmilli korporasiyalar dövlətin xarici iqtisadi funksiyasını yerinə yetirirlər. Beynəlxalq terrorçuların cinayətkar iqtisadi qruplarla əməkdaşlığı onların fəaliyyət dairəsini qlobal səviyyədə genişləndirir. Bu gün terrorizm regional deyil, qlobal miqyasda «qanuniləşdirilmiş» siyasi fəaliyyət növünə çevrilir.

U.Ben-ladenin başçılıq etdiyi şirkətə, dünyanın müxtəlif coğrafi məkanlarında yerləşən 15-dən çox şirkət daxildir. Bu şirkətlər Yaxın Şərqdə, Mərkəzi və Cənub-Şərqi Asiyanın müxtəlif ölkələrində, ABŞ-da, Fransada, Böyük Britaniyada və digər ölkələrdə fəaliyyət göstərir. Şirkətlər neft və silah alveri ilə küllü miqdarda maliyə əldə edirlər.

Qloballaşma prosesində terrorçu qruplar yüksək hərbi texnologiyaya sahib olurlar. Yüksək texnoloji terrorizm qloballaşma prosesində daha təhlükəli qüvvəyə çevrilir. Hazırda dünya üzrə 500-ə yaxın texnoloji terrorizm mövcuddur (14, s.313). Onlar dağıdıcı vasitələrdən, bioloji və kimyəvi silahlardan istifadə edirlər.

Yaponiyada «Auis Sinrike» terror qrupu yüksək texnologiya əsasında kütləvi qarğın silahı hazırlamışdır. Terror qrupunun fəaliyyətinin qarşısı alınmasaydı əhalinin kütləvi zəhərlənməsi baş verə bilərdi.

Yüksək texnologiyanın cinayət məqsədi üçün istifadə edilməsi dünya üçün təhlükəli hadisə olub, qarşısı vaxtında alınmalıdır.

Qloballaşma prosesində beynəlxalq terrorizmin qarşıya qoyduğu məqsəd dəyişmişdir. İndi terrorçular qlobal səviyyədə hakimiyyəti ələ keçirmək, separatizm vasitəsilə suveren dövlətlərin ərazilərini ələ keçirmək məqsədini həyata keçirirlər. Beynəlxalq ter-

rorizmin müxtəlif qolları siyasi, dini separatizm, radikalizm, qloballaşma əleyhinə vahid cəbhədə çıxış edirlər. Antiterror əməliyyatının iştirakçıları isə islam dini pərdəsi olan terrorçulara qarşı mübarizə aparırlar, buna görə də qlobal səviyyəli terrorizmin qarşısını almaq qeyri-mümkündür.

Qloballaşma prosesində elmin və texnikanın yenilikləri yeni sahələrə tətbiq edilir. beynəlxalq terrorçular kommunikasiya, sənaye infrastruktur sahələrini dağıdır, əhalinin yaşayış sahələrini təhlükə altına atırlar. Digər çətinlik ondan ibarətdir ki, bəzi dövlətlər terrora, ekstremizmə, separatizmə qarşı mübarizədə ikili standart siyasətini aparırlar. Qloballaşma prosesində ikili standartlara yol verən dövlətlərin özləri sonra həmin təhlükəyə məruz qalırlar. Qloballaşma şəraitində bir dövlət başqa dövlətin hesabına təhlükəsizliyini təmin edə bilməz. Təhlükəsiz yaşamaq üçün hər bir dövlətin ərazi bütövlüyünə, suverenliyinə hörmət olunmalıdır.

R.Sevdimalıyevə görə: «Beynəlxalq terrorizm birbaşa qloballaşma ilə əlaqəlidir» (15, s.8). Çünki güclü dövlətlər qloballaşma prosesində ticarətdən, silah və narkotika alverindən külli miqdarda gəlir götürürlər. Beynəlxalq terrorçu qruplar transmilli nəqliyyat dəhlizlərində hərbi terrorçu qruplar yaradırlar. Neft və qaz magistralı yollarında terror aktları törədirlər. Sənaye, tikinti, hərbi obyektlərdə, dəmir yollarında, gəmilərdə, təyyarələrdə və başqa həyat mənafeyi üçün zəruri olan yerlərdə terror əməliyyatları həyata keçirirlər.

Beləliklə, belə bir nəticəyə gələ bilərik ki, beynəlxalq terrorizm müasir qloballaşma prosesinin törətdiyi fəsadlardan irəli gəlir.

Beynəlxalq terrorizmin güclü olduğu ərazilərdə qeyri-sabit vəziyyət yaranır, tarix boyu cəmiyyətdə yaranan mənəvi sərvətlər zəifləyir, dinlərarası düşmənçilik hisləri güclənir.

Beynəlxalq terrorizmin qarşısını almaq üçün güc tətbiqindən əl çəkərək bərabərhüquqlu əməkdaşlığa üstünlük verilməlidir.

Qloballaşma prosesində dünya dövlətlərinin birgə siyasi fəaliyyəti ilə terrorizmin beynəlxalq səviyyədə qarşısını almaq mümkündür. Beynəlxalq terrorizmin qarşısının alınması beynəlxalq təhlükəsizliyin yaranmasını şərtləndirir.

Beynəlxalq təhlükəsizliyin tədqiqatı elmi-nəzəri və praktik hərbi cəhətdən yanaşılmanı tələb edir. Beynəlxalq təhlükəsizlik sistemli bütöv bir hadisə kimi təhlil edilməlidir. Beynəlxalq təhlükəsizlikdə aşağıdakı cəhətlərə əsas diqqət verilir:
- təhlükənin baş vermə səbəbləri müəyyən edilir;
- təhlükənin əsas istiqamətləri araşdırılır;
- təhlükənin qarşısını almaq üçün tədbirlər hazırlanır və həyata keçirilir.

Antiqlobal və beynəlxalq terrorizm hadisəsinin qarşısını almaq üçün ilk növbədə ədalətli və demokratik qloballaşma sistemi yaradılmalı və həyata keçirilməlidir. Ədalətli və demokratik qloballaşma sistemi beynəlxalq təhlükəsizliyin qarantıdır.

## *ƏDƏBIYYAT*

1. Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, XXI əsrlər yeni nəşrlər evi, 2005, 464s.
2. Кулагин В.М. Международная безопасность. М.: Аспект-Пресс, 2006, 319с.
3. Бобков Ф., Иванов Е., Чаплинский С. Современный глобальный капитализм. М.: Олма-Пресс, 2003, 351с.
4. Удовик С.Л. Глобализация. Селеиотическое подходы. М.: Рефлвенк, Ваклир, 2002, 480с.
5. www.islam.az/statyi/geosiyaset.az.himl
6. Cozef E. Stiqlits. Qloballaşma və onun doğurduğu narazılıqlar (*ingilis dilindən tərcümə*). Bakı, İqtisadi İslahatlar Mərkəzi, 2004, 317s.
7. www.forum.misk.ru

8. ШемуякинЯ.Т. О Докладе Н.Н.Попова // Глобальная история и история мировых цивилизаций. М.: Мировая экономика, 2003, с.54-59
9. www.forum.misk.ru
10. Лукин В.Н.Глобализация и международный терроризм. М.: Наука, 2006, 496с.
11. Бжезинский З. . Выбор мировая государство цели глобальная лидерства. М.: Международные отношения, 2004, 288с.
12. Важкапап М.Б. Терроризм
13. www.nbutia/tekst/polit
14. Həmidov S. . Yüksək texnoloji təhlükə qlobal problemdir // Dirçəliş XXI əsr, Bakı, 2004, №78-79, s.313-318
15. Севдималиев Р. Международный терроризм глобальная проблема современности. Баку, Елм, 2004, 312с

**АРЗУМАН КОСАЙЕВ**

**АНТИГЛОБАЛИЗАЦИЯ И УГРОЗА МЕЖДУНАРОДНОГО ТЕРРОРИЗМА**

В данной статье глубако рассматривается сущность глобализации, как активный элемент современной системы международных отношений. Доводится до внимание, что глобализация обуславливает интеграции стран мира в различных областях. Это в основном охватывает экономическую и политическую сферы. Также указывается, что глобализация уменшает границы и между моральными ценностями. А это негативно отражается в сознаниях народов мира. Этот процесс в всою очередь обуславливает появлению нового движение-антиглобализации. Автор глубако анализирует принципы антиглобализации.

В статье также октрывается сущность терроризма, как одна из причин нестабильности в современном мире. Отмечается, что глобализация создает условия для расширение ареала терроризма.

**ARZUMAN KOSAYEV**

**ANT GLOBALIZATION AND THE DANGER OF INTERNATIONAL TERRORISM**

In the article the essence of globalization is deeply looked through as an active element of contemporary system of international relations. In the article much is paid to the fact that globalization results the integration of world countries in various spheres. And it mainly covers economical and political spheres as well. It is also noted that globalization decreases border between moral estimates. And it is negatively expressed in the minds of the world peoples. And in its turn, this process results the appearance of a new action – ant globalization. The author deeply analyses the principles of ant globalization.

In the article the essence of terrorism is analyzed as one of the reasons of no stability in contemporary world. In the article, it is also noted that globalization creates condition for broadness of terrorism as well.

***Rəyçilər: s.e.n. E.Mirbaşiroğlu, t.e.d.M.B.Fətəliyev.***

***BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin Sosiologiya kafedrasının 28 may 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №09).***